**“Təsdiq edirəm”**

**Bakı Slavyan Universitetinin rektoru**
**Anar Nağıyev**

“ 22 ” sentyabr 2025-ci il

**Bakı Slavyan Universitetində sərbəst işlərin yerinə yetirilməsi haqqında**

# T Ə L İ M A T

**1. Ümumi müddəalar.**

**1.1.** Sərbəst işlərin yerinə yetirilməsi haqqında təlimat (bundan sonra təlimat) Bakı Slavyan Universitetində (bundan sonra Universitet) yerinə yetirilən sərbəst iş tapşırıqlarının məqsədi, mövzularının seçilməsi, təhsilalanlar tərəfindən bu tapşırıqların yerinə yetirilməsi və fənn müəllimləri tərəfindən qiymətləndirməsi prosesini tənzimləmək üçün nəzərdə tutulur.

1.2. Təhsilalanların sərbəst işi - onlara verilmiş tapşırıqların sərbəst və müəllimin rəhbərliyi ilə auditoriyadankənar həyata keçirdiyi müstəqil işidir.

**1.3.** Təlimatın hazırlanmasında Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının “Təhsil haqqında” qanunu, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” və 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təstiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları” və Azərbaycan Respublikası Təhsil Nazirinin 1060 saylı 11.09.2008-ci il tarixli əmri ilə təsdiq olunmuş “Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında” əsasnamə əsas götürülmüşdür.

**2. Sərbəst iş tapşırıqların yerinə yetirilməsinin məqsədi.**

**2.1.** BSU-da tədris prosesi auditoriya və auditoriyadankənar (tələbənin müstəqil və müəllimin rəhbərliyi ilə sərbəst işi) şəkildə təşkil olunur. Sərbəst işlərin həcmi tədris olunan

fənlərə ayrılan akademik saatlara müvafiq olaraq Bakı Slavyan Universiteti tərəfindən müəyyən edilir.

**2.2.** Sərbəst iş - tədris olunan fənlərin BSU-da bakalavriat və magistratura səviyyəsində təhsil alan tələbələr tərəfindən daha dərindən mənimsənilməsinə, eyni zamanda tələbələrdə analitik təfəkkürün, praktiki vərdişlərin və peşə kompetensiyalarının formalaşmasına xidmət edir.

**2.3.** Sərbəst işlərin yerinə yetirilməsinə dair tapşırıqlar fənni tədris edən müəllim tərəfindən müəyyən olunur və keçirilən mövzular üzrə problem və praktiki xarakterli məsələlər, tapşırıqlar, araşdırmalar, qrup və ya fərdi işlər, hesabatlar, təqdimatlar, müqayisəli təhlillər və s. ola bilər.

**3. Sərbəst iş tapşırıqları mövzularının seçilməsi.**

**3.1.** Sərbəst iş tapşırıqlannın icrası təhsilalanlarda təhsil aldıqları ixtisas üzrə təhsil proqramında nəzərdə tutulan səriştələrin (kompetensiyaların) əldə olunmasına yönəlməlidir.

**3.2.** Sərbəst işlər üzrə mövzular tədris semestrinin əvvəlində müəllim tərəfindən tələbələrə seçim üçün təqdim olunur.

**3.3.** Fənnin məzmunu çərçivəsində tələbə istədiyi mövzunu təqdim edərək sərbəst iş hazırlaya bilər.

**3.4.** Sillabuslarda sərbəst işlərin yerinə yetirilmə forması və üsulu (fərdi, cütlər, qrup şəklində, layihə, təqdimat və s.) göstərilməlidir.

**3.5.** Mövzular əsasən fənn üzrə təlim nəticələrinin formalaşmasına xidmət etməlidir.

**3.6.** Sillabusda verilmiş mövzular üzrə tələbələrin seçimləri sərbəstdir.

**3.7.** İxtisas üzrə dil fənlərindən (Dil bacarıqları, ixtisasyönümlü xarici dil və s.) sərbəst iş tapşırıqları təhsilalanların xarici dildə danışıq, oxu, yazı və dinləmə bacarıqlanmmn inkişafına uyğun vərdişlərin və bacarıqların formalaşmasına xidmət etməlidir.

**3.8.** Ümumi fənn blokuna aid fənlərdən sərbəst iş tapşırıqları təhsilalanlarda biliklə yanaşı praktiki bacarıqların (ünsiyyət bacarıqları, problem həll etmə, zamanın düzgün idarə olunması, liderlik, əməkdaşlıq və s.) inkişafına kömək etməlidir. Fənlər üzrə sərbəst iş tapşırıqları təhlil xarakterli olmalıdır.

**3.9.** Sərbəst işlərin hazırlanmasında akademik dürüstlük təmin olunmalı, plagiat hallarının qarşısı alınmalıdır.

**3.10.** Sərbəst iş tapşırıqları mövzuların aktuallığından asılı olaraq hər tədris ilində yenilənməlidir.

**4. Sərbəst iş tapşırıqlarının qiymətləndirilməsi.**

**4.1.** Ayrı-ayrı fənlər üzrə tələbəyə sərbəst işə görə verilən bal maksimum 10 balla qiymətləndirilir. Sərbəst iş tapşırıqları araşdırma xarakterli hesabat olduqda tapşırığın həcmi 5

səhifədən az olmamalıdır. Təqdimat formasında olan sərbəst işlər minimum 10-15 slayddan ibarət olmalıdır. Sərbəst işlərin quruluşu giriş, əsas məzmun və ədəbiyyat siyahısından ibarətdir. Yazı qaydaları üzrə tələblər: *Times New Roman 14 şrift, 1,5 interval, kənarlar: sağdan 2 sm, soldan 3 sm, aşağı və yuxarıdan 2 sm.*

**4.2.** Tələbənin sərbəst işinin növü və forması (fərdi, komanda, qrup işi və s.) fənni tədris edən müəllim tərəfindən müəyyənləşdirilir. Lakin burada verilən tapşırıqların və onun icra formasının tələbələrin analitik təhlil və araşdırma bacarıqlanmn formalaşmasına xidmət etməsi önəmlidir.

**4.3.** Tapşırıqların yoxlanılması və qəbulu müəllim tərəfindən dərsdən kənar vaxtda əvvəlcədən müəyyən olunmuş vaxtda həyata keçirilir.

**4.4.** Təqdim olunan mövzular təqdimat formasından asılı olaraq semestr boyu işlənir və tədris semestrinin sonuncu ayının ilk həftəsi müəllimə təqdim olunur.

**4.5.** Sərbəst iş tapşırığını icra etməyənlər "0” balla qiymətləndirilir.

**5. Sərbəst iş tapşırıqları mövzularının seçilməsi, qiymətləndirilməsinə görə məsuliyyət.**

**5.1.** Sərbəst iş mövzuları semestrin əvvəlində müvafiq kafedra müdiri tərəfindən təsdiq olunur və kafedra tərəfindən bir nüsxəsi Tədris departamentinə təqdim edilir.

**5.2.** Sərbəst iş mövzularının seçilməsi, tədqim olunma və qiymətləndirmə prosesinə fənn müəllimi birbaşa məsuliyyət daşıyır.

**5.3.** Sərbəst iş mövzularının təqdim olunması (hesabat və ya digər təqdimat formalarında) hər qrupun təqdimatından sonra semestrin sonunda kafedrada saxlanılır (ən azı 1 semestr).

**5.4.** Sərbəst iş tapşırıqlanrnn icrasının bu təlimatda göstərilən qaydalara uyğun aparılmasına fakültə dekanları, müvafiq kafedra müdirləri və Tədris departamenti birbaşa məsuliyyət daşıyır.

**6. Yekun müddəalar.**

**6.1.** Bu təlimat BSU-nun Tədris departamenti tərəfindən hazırlanır və Elmi-metodiki Şurada təsdiq olunur.

**6.2.** Tədris departamenti və Rəqəmsallaşdırma və keyfiyyətin təminatı mərkəzi tədris ili müddətində sərbəst işlərin yerinə yetirilmə prosesi haqqında təhlillər apararaq Elmi Şurada hesabat verir.

**Bakı Slavyan Universitetinin Elmi-Metodiki Şurasının 22 sentyabr 2025-ci il tarixli iclasında (protokol № 2) təsdiq edilmişdir.**

**Bakı Slavyan Universitetinin Elmi-Metodiki Şurasının sədri Fikrət Cahangirov**